

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 29 (23.191)

*9 fevral 2019-cu il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublika mükafatının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2019-cu il üçün elm sahəsi üzrə Naxçıvan Muxtar Respublika mükafatı "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" kitabına görə Hacıyev İsmayıl Muxtar oğluna verilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 fevral 2019-cu il*

## Naxçıvan Muxtar Respublikasının fəxri adlarının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında səmərəli fəaliyyətlərinə görə:

Allahyarova Güllü Şuğeyib qızına

Əliyeva Nurlana Sabir qızına

Seyidova Aybəniz Novruz qızına – **"Əməkdar müəllim"** fəxri adı;

Əhmədova Sahilə Əziz qızına – **"Əməkdar dövlət qulluqçusu"** fəxri adı;

Əliyev Hikmət Hüseyn oğluna – **"Əməkdar hüquqşünas"** fəxri adı;

Əliyeva Kəmalə Nəriman qızına – **"Əməkdar jurnalist"** fəxri adı;

Hüseynov Nadir Məmməd oğluna – **"Əməkdar mədəniyyət işçisi"** fəxri adı;

Hüseynova Bahar Qurban qızına – **"Əməkdar tibb işçisi"** fəxri adı;

Xudiyeva Turac Qulam qızına – **"Əməkdar həkim"** fəxri adı;

İsmayılov Ədalət Qadir oğluna – **"Əməkdar rəssam"** fəxri adı;

Qurbanov Qəzənfər Novruz oğluna – **"Əməkdar kənd təsərrüfatı işçisi"** fəxri adı;

Mirzəyev Aydın Ayrım oğluna – **"Əməkdar bədən tərbiyəsi və idman xadimi"** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 8 fevral 2019-cu il*

*Naxçıvan Muxtar Respublikası – 95*

# Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir

***Azərbaycan dövlətçiliyi tarixində mühüm yer tutan Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95-ci ildönümü tamam olur. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı" təsdiq edilmişdir.***

1921-ci ildə Azərbaycanın tərkibində muxtariyyət statusu qazanan Naxçıvan diyarında 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikası yaradılmışdır. Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm, əhəmiyyətli hadisəsidir. Bununla Naxçıvan Azərbaycanın əzəli və əbədi tərkib hissəsi kimi qorunub saxlanılmış və şərəfli inkişaf yolu keçmişdir.

XX əsrin 20-ci illəri, xüsusilə 1918-1920-ci illər Naxçıvan diyarı üçün çətin inkişaf dövrü olmuşdu. Çarizm devrildikdən sonra imperiyanın əksər əyalətlərində olduğu kimi, Naxçıvan diyarında da ikihakimiyyətlilik yaranmış, bir sıra kapitalist dövlətləri mürəkkəb vəziyyətdən istifadə edərək Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu diyara yiyələnmək üçün cəhdlər etmişlər.

Milli burjuaziyanın və demokratik ziyalıların təşəbbüsü ilə Naxçıvanda Müsəlman Milli Şurası yaradılmışdı. Bu şura yalnız Naxçıvanda deyil, eləcə də Mehridən Uluxanlıya qədər ərazidə yaşayan azərbaycanlıları ermənilərin silahlı quldur basqınlarından qoruyurdu.

Azərbaycan Xalq Cümhuriyyətinin Azərbaycanı müstəqil dövlət elan etməsi Naxçıvan diyarı əhalisində müəyyən ümidlər yaratmışdı. Naxçıvan diyarının qarşılaşdığı problemləri həll etmək və çətinlikləri aradan qaldırmaq üçün istər yerli əhali və onun başçıları, istərsə də Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən müəyyən işlər görülmüş, erməni daşnaklarının torpaq iddialarının və etnik təmizləmə siyasətinin reallaşdırılması istiqamətində cəhdləri dəf olunmuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti çox mürəkkəb və çətin vəziyyətə düşən Naxçıvan diyarının Azərbaycanın tarixi torpaqları olduğunu elan etməyə imkan tapa bilməmişdi. Bundan istifadə edən Ermənistan Naxçıvan diyarına yiyələnmək üçün öz fəaliyyətini daha da genişləndirdi. Erməni silahlı quldur dəstələri bölgədə dinc azərbaycanlı əhaliyə divan tutur, yerli azərbaycanlıların sayını süni surətdə azaltmaq üçün hər cür vasitəyə əl atırdı.

Ermənistanın Naxçıvan diyarına olan iddialarının artdığı bir dövrdə – 1918-ci il iyulun 7-də Kazım Qarabəkir Paşanın başçılığı ilə türk ordusu Naxçıvana gəldi və erməni özbaşınalığının qarşısını almaq üçün əhaliyə kömək göstərdi. İyulun 17-də Naxçıvan Müsəlman Milli Şurası Bələdiyyə idarəsi ilə əvəz edildi. Türkiyənin Naxçıvana gəlmiş XI Qafqaz Ordusu yerli özünümüdafiə qüvvələri ilə erməni daşnaklarına sarsıdıcı zərbə vurdu. Birinci Dünya müharibəsində məğlub olduğuna və 1918-ci il oktyabrın 30-da imzaladığı Mudros müqaviləsinin şərtlərinə görə türk qoşunları Azərbaycanı, eləcə də Naxçıvanı tərk etməli oldu.

Naxçıvanlılar bu diyarı erməni işğalından qorumaq üçün 1918-ci il noyabrın 3-də Araz-Türk Respublikası adlı cümhuriyyət yaratdılar. Hökumətin sədri Əmir bəy Nərimanbəyov, nazirlər isə İbrahim bəy Cahangiroğlu (hərbi), Bağır bəy Rzazadə (inzibati), Qənbərəli bəy Bənəniyarlı (maliyyə), Məmməd Bəyzadə (ədliyyə), Həsənağa Şəfizadə (xarici işlər), Mirzəhüseyn Mirzə Həsənzadə və Lütfi Xoca Ekid Əfəndi (şeyxülislam) idi. Paytaxtı Naxçıvan şəhəri olan bu respublikanın ərazisinə Naxçıvan, Şərur-Dərələyəz, Sürməli qəzaları, Üçmüədzin qəzasının bir hissəsi, Ordubad dairəsi, Sərdarabad, Uluxanlı, Qəmərli, Vedibasar, Mehri və başqa bölgələr daxil idi. Sahəsi 8696 kvadratkilometrə çatırdı. Əhalisi bir milyon nəfərdən artıq idi.

Araz-Türk Respublikasının yaradılmasında məqsəd bölgənin erməni işğalı altına düşməsinə imkan verməmək idi. Hökumət bu istiqamətdə fəal iş aparırdı. Araz-Türk Respublikasının hərbi qüvvələrinin yaradılması və formalaşdırılmasında hərbi nazir İbrahim bəy Cahangiroğlunun böyük əməyi olmuşdu. Onun köməyi ilə qısa müddətdə silahlı qüvvələr təşkil edilmiş, 500 nəfərlik süvari alayı yaradılmışdı. Könüllü xalq dəstələri, təxminən, 20 tabordan ibarət idi. Taborlardan 4-ü Naxçıvanda, 3-ü Şərur-Dərələyəzdə, qalanları isə Zəngibasar, Vedibasar, Qəmərli və başqa ərazilərdə yerləşdirilmişdi.

Düdəngə və Zeyvədə yerləşən taborlara Fətulla Hüseynov, Şərurda və Sədərəkdəki taborlara Həsən Şahverdioğlu, Yengicə qüvvələrinə Məşədi Ələsgər ağa, Ordubaddakı tabora İbrahimxəlil Axundov, Nehrəm taboruna Kəblə Muxtar, Cəhri taboruna Kəblə Kərim, Dizə taboruna Məmmədrza bəy, Naxçıvan taboruna Hüseyn Əliyev komandanlıq edirdi. Diyar əhalisinin öz təhlükəsizliyini qorumaq əzmi o qədər böyük idi ki, doğma ocaq və torpaqlarını müdafiə edən könüllü dəstələr işğalçıları təkcə darmadağın etmir, eyni zamanda İrəvanın özünü qorxuya salırdı.



Naxçıvan ərazisində milis idarələri və onların sahə şöbələri də yaradılmışdı. Bütün qüvvələr Naxçıvanın qorunmasına və idarə olunmasına yönəlmişdi. Könüllü müqavimət dəstələri erməni daşnaklarına layiqli cavab verirdi. Xüsusilə Şərur-Dərələyəz mahalındakı Zeyvə kəndi yaxınlığında baş verən döyüşdə Kalbalı xanın rəhbərliyi ilə 6 min nəfərlik könüllü müqavimət dəstələri erməni hərbi qüvvələrini darmadağın etmişdilər.

1919-cu ilin yanvarında ingilislər Naxçıvana gəldilər və burada general-qubernatorluq yaratdılar. Bir aydan sonra Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələri də Naxçıvana gəlib çıxdılar. Keçirilən müzakirələrdə siyasi, hərbi, iqtisadi, maddi və mədəni məsələləri özündə birləşdirən akt tərtib edildi. Bu akt Naxçıvanın könüllü surətdə Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirilməsi haqqında idi. Akt hökumət üzvləri, Milli Şura üzvləri və yerli əhalinin nümayəndələri tərəfindən imzalanmışdı.

İngilislərin isə məqsədi buranı Ermənistana vermək idi. Lakin Naxçıvan əhalisi diyarın ingilislər tərəfindən Ermənistana verilməsinə qarşı mübarizəyə qalxdı. Bununla əlaqədar Naxçıvan Müsəlman Milli Şurasının üzvləri ingilis general-qubernatoruna məktub göndərərək öz qəti etirazlarını bildirdilər. Məktubda Araz-Türk Respublikası əhalisinin "bütün dünyanın və bütün mədəni qüvvələrin azad həyat, xalqların öz müqəddəratını həll etmək hüququ haqqında qışqırdıqları bir vaxtda azərbaycanlılar bizdən heç bir cəhətdən üstün olmayan, əksinə, bir çox hallarda bizdən geri qalan ermənilərin qulu ola bilməzlər" fikrinə gəlməsi faktı və səbəbləri öz əksini tapmışdı.

Naxçıvan Milli Şurasının sədri Cəfərqulu xan Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri M.Y.Cəfərova göndərdiyi məktubda yazırdı: "Biz özümüzü Azərbaycanın ayrılmaz hissəsi hesab edirik və əminik ki, hər hansı səbəbdən hərbi qüvvə ilə kömək edə bilməsə də, heç olmasa, top, tüfəng və patronla Azərbaycan bizə kömək edəcəkdir. Hətta Azərbaycan bundan da imtina etsə, biz bu yolda canımızdan keçəsi olsaq belə, müqəddəs vədimizi yerinə yetirəcəyik".

1919-cu ilin yayında Naxçıvanda olan amerikalı polkovnik Rey Naxçıvan Milli Şurasının sədri Cəfərqulu xanla danışıqlar apardı. Polkovnik V.Haskel Naxçıvan, Şərur-Dərələyəz qəzalarında xüsusi zona və bu ərazidə Amerika general-qubernatorluğu yaratmaq istəyirdi. Bununla əlaqədar V.Haskel öz layihəsini hökumət başçısı N.Yusifbəyliyə təqdim etdi. Bu xəbəri eşidən Cənub-Qərbi Azərbaycan müsəlmanlarının ümumi iclasının sədri Əli Səbri Qasımov, yerlilər cəmiyyətinin sədri Z.Məmmədov və nümayəndə heyətinin üzvü A.Nəcəfov hazırladıqları 10 maddəlik tələbnaməni N.Yusifbəyliyə təqdim etdilər. Bu tələblərin əsasında Naxçıvanı Azərbaycanın tərkibində saxlamaq fikri dayanırdı.

1919-cu il sentyabrın əvvəllərində Naxçıvan nümayəndələri Ə.S.Qasımov və K.M.Əsgərov polkovnik V.Haskelə 10 bəndlik memorandumu təqdim etdilər. Görüş zamanı V.Haskel Ə.S.Qasımovdan soruşdu ki, Naxçıvanın və digər regionların əhalisi bu ərazilərin erməni hökumətinə verilməsinə necə baxar? Əli Səbri Qasımov bildirdi ki, "əldə silah ləyaqətli ölümü üstün tutaraq bu hökuməti var qüvvələri ilə rədd edərlər".

1920-ci ilin aprelində Azərbaycan XI Qırmızı Ordu tərəfindən işğal olundu. Azərbaycan Xalq Cümhuriyyəti devrildi və Azərbaycanda sovet hakimiyyəti bərqərar edildi. Naxçıvanda sovet hakimiyyəti iyulun 28-də elan edildi və Hərbi İnqilab Komitəsi yaradıldı. Bir neçə gündən sonra avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri M.Bektaşov Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri N.Nərimanova belə bir məktubla müraciət

*Ardı 2-ci səhifədə*

etdi: "Naxçıvan xalqının böyük əksəriyyətinin qərarı ilə Naxçıvan ölkəsi özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsi hesab edir".

Çox qəribə idi ki, Naxçıvanda olan bolşevik ordusu həm Ermənistanla müharibə aparır, həm də onlarla siyasi və diplomatik danışıqları davam etdirirdi. Bu danışıqlarda Azərbaycanın, hətta mübahisəsiz torpaqlarının Ermənistana verilməsi məsələsi müzakirə olunurdu. Bundan xəbər tutan N.Nərimanov Leninə göndərdiyi məktubda yazırdı: "Dəhşətli vəziyyət yaranmışdır. Mərkəz Gürcüstanın və Ermənistanın müstəqilliyini, Azərbaycanın istiqlaliyyətini tanımış, lakin eyni zamanda həmin mərkəz Azərbaycanın tamamilə mübahisəsiz ərazilərini Ermənistana verir..."

Naxçıvan əhalisinin qətiyyətli mövqeyi və mübarizəsi ermənilərin Naxçıvanla bağlı planlarını pozdu. Bu işdə böyük dövlətlər də onlara kömək göstərə bilmədilər. Məkrli niyyətlərini pərdələyən ermənilər və Ermənistan İnqilab Komitəsi 1920-ci il dekabrın 28-də Naxçıvanı müstəqil sovet respublikası kimi tanımış və bu diyar ilə əlaqədar iddialarından imtina etmişdilər.

Beləliklə, bölgə əhalisi 1918-1920-ci illərdə misilsiz çətinliklərə, təqiblərə, müsibətlərə sinə gərərək milli ləyaqəti uca tutdu, diz çökmədi, erməni silahlı quldur dəstələrinə layiqli cavab verdi. Naxçıvan diyarının əhalisi özünü Azərbaycandan ayrı təsəvvür etmirdi. Onlar hələ o vaxt öz qəti fikirlərini belə ifadə etmişdilər: "Bu xalq mədəni dövlətlərin alovlarında məhv olmağa razı olar, amma Azərbaycandan ayrılmaz".

İstər sovetləşməyə qədər, istərsə də sovetləşmədən sonra ermənilər yaranmış vəziyyətdən istifadə edərək Azərbaycanın bir sıra bölgələrinə sahib olmaq üçün ərazi iddiaları irəli sürmüşlər. Bu sahədə bolşeviklər ermənilərin ən yaxın müttəfiqləri olmuş, "böyük Ermənistan" ideyasının gerçəkləşdirilməsi istiqamətində onlara hər cür yardım etmişlər. Nəticədə, ermənilərin "...torpaq iddiaları bolşevik işğalından sonra daha da güclənmiş, bu dəfə Azərbaycan Zəngəzur mahalını itirməli olmuşdur". Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvan Azərbaycandan ayrı düşmüş, onunla heç bir sərhəd xətti olmamışdır. Belə olan halda Naxçıvan Azərbaycanın tərkibində muxtariyyət uğrunda mübarizəyə başlamışdır. Görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin qeyd etdiyi kimi, ***"...əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı, bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi".***

Naxçıvanda əhalinin narazılığı get-gedə artırdı. Bununla əlaqədar Azərbaycan İnqilab Komitəsinin üzvü, ədliyyə komissarı Behbud ağa Şahtaxtinski 1920-ci il dekabrın 15-də Naxçıvana göndərildi. O, Naxçıvanda, Ordubadda, Şərurda əhali ilə görüşlər keçirir, Naxçıvanın Azərbaycanın tərkibində saxlanması üçün əhalini təlimatlandırırdı. Əhalinin əksəriyyəti Azərbaycanın tərkibində Naxçıvana ərazi muxtariyyətinin verilməsini tələb edirdi. 1921-ci il yanvarın əvvəlində Naxçıvanda onun Azərbaycan SSR tərkibində saxlanması barədə rəy sorğusu – referendum keçirildi. Rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizdən çoxu vilayətin muxtar respublika hüququnda Azərbaycanın tərkibində qalmasına səs verdi.

Naxçıvanın Azərbaycanın tərkibində qalmasında və ona muxtariyyət statusunun verilməsində B.Şahtaxtinskinin əməyi xüsusi qeyd edilməlidir. Onun RSFSR XKS-nin sədri V.İ.Leninə yazdığı 13 avqust, 20 sentyabr, 7 oktyabr 1920-ci il və xüsusən 1 mart 1921-ci il tarixli məktub və teleqramlarında, əlavə etdiyi arayışlarda bolşevik hakimiyyətinin Şərq siyasəti, bu zaman yol verilən səhvlər, Rusiya-Türkiyə münasibətlərinin qurulması və bunun Rusiya üçün əhəmiyyəti, Azərbaycan-Rusiya münasibətləri, Azərbaycanın ərazi bütövlüyü problemi, Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması və ona muxtariyyət statusu verilməsi və başqa məsələlər qaldırılmış, təklif və mülahizələr bildirilmişdi. O yazmışdı ki, "Naxçıvanın Ermənistana verilməsi xalqın özünütəyin prinsipini və Sovet Azərbaycanının hüquqlarını pozur".

Beləliklə, referendumun nəticəsi, eləcə də B.Şahtaxtinskinin təklifləri, Naxçıvan məsələsində Türkiyə tərəfinin obyektiv mövqe tutması nəticəsində Moskvanın Naxçıvan məsələsinə münasibətinin dəyişməsinə və nəticə etibarilə Naxçıvana Azərbaycanın tərkibində muxtariyyət statusu verilməsinə təsir etdi.

Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında 1921-ci il martın 16-da imzalanan Moskva müqaviləsində təsbit edildi. Müqavilədə deyilirdi ki, tərəflər həmin müqavilənin üçüncü maddəsinə əsasən Naxçıvan vilayətinin Azərbaycan Respublikasının himayəsi altında və həmin vilayətin Azərbaycan tərəfindən heç bir üçüncü dövlətə güzəşt edilməməsi şərtilə muxtar ərazi təşkil etməsinə razıdırlar. Müqavilənin I (C) əlavəsində isə Naxçıvan ərazisinin sərhədləri verilmişdi.

1921-ci il oktyabrın 13-də Cənubi Qafqaz respublikaları ilə Türkiyə arasında imzalanan Qars müqaviləsində Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdur. Moskva müqaviləsindən fərqli olaraq Qars müqaviləsinin beşinci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdir. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdu.

Beləliklə, 1917-ci ildən mübarizə aparan naxçıvanlıların arzuları gerçəkləşdi, diyarın ərazi mənsubiyyəti məsələsi beynəlxalq müqavilələrlə Azərbaycan üçün qanuni və ədalətli qaydada həll olundu.

1921-ci ildən 1924-cü ilədək, yəni muxtariyyət statusundan muxtar respublikanın təşkilinə kimi çoxsaylı müzakirələr aparılmışdı. Bu müzakirələrdə bir məsələ aydın idi ki, Azərbaycanın daxilində Naxçıvanın muxtariyyət təşkil etməsi bölgənin spesifik ərazi vəziyyəti-geosiyasi şəraiti ilə bağlı idi. Naxçıvanın Azərbaycandan ayrı düşməsi, heç bir sərhədə malik olmaması onun inzibati idarəçiliyini qəza və ya rayon hüquqlarında təşkil etməyə imkan vermirdi. 1923-cü il iyunun 16-da Naxçıvan muxtar diyarı (ölkə) adlandırıldı. 1924-cü il yanvarın 4-də Zaqafqaziya MİK onu Naxçıvan MSSR elan etdi. 1924-cü il fevralın 9-da Azərbaycan MİK-in Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan MSSR-ə çevrilməsi haqqında dekret qəbul etdi.

Naxçıvanın muxtariyyət statusunun hüquqi bazasının yaradılması 1924-cü ilin aprelində təsdiq edilmiş Əsasnamə və 1926-cı il aprelin 18-də qəbul olunmuş Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının birinci Konstitusiyası ilə təsbit edildi. Konstitusiyanın ikinci maddəsində deyilirdi: "Naxçıvan Sovet Sosialist Respublikası Azərbaycan Sovet Sosialist Respublikasının protektoratlığında olmaqla onun tərkib hissəsidir". Naxçıvan MSSR-in sonrakı konstitusiyalarında da Naxçıvan Azərbaycan SSR-in tərkibində muxtar respublika kimi göstərilmişdir.

Ötən əsrin 80-ci illərinin axırlarında Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan ərazilərinə erməni iddiaları baş qaldırmış, mərkəzin ikiüzlü siyasəti bu hadisələri qızışdırmışdı. Lakin 1990-cı ilin iyul ayında görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini erməni işğalından və muxtariyyət statusunu ləğv olunmaq təhlükəsindən xilas etdi.

***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən ən böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq",*** – deyən müdrik dövlət xadimi Heydər Əliyev Türkiyə rəhbərləri ilə Qars müqaviləsini və onun şərtlərini müzakirə obyektinə çevirməklə beynəlxalq aləmin diqqətini bir daha bu vacib məsələyə cəlb etmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"1990-cı ilin iyul ayında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini işğaldan, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi. Bu illərdə xalqımızın böyük oğlunun muxtar respublika Ali Məclisində xüsusi bəyanatla çıxış etməsi, Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirərək dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkar siyasətinə yönəltməsi Naxçıvanın muxtariyyət statusuna ikinci ömür vermişdir".***

1993-cü ildə ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə xalqın və müstəqil dövlətçiliyin xilası və möhkəmləndirilməsinə başlanıldı. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına və muxtariyyətin qorunmasına diqqət artırıldı. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verildi.

Müxtəlif dövrlərdə Naxçıvan Muxtar Respublikasının təşkil olunmasının ildönümləri dövlət səviyyəsində qeyd olunmuş, 1949-cu ildə muxtar respublikanın 25, 1964-cü ildə 40, 1974-cü ildə 50, 1984-cü ildə 60 illik yubileyləri keçirilmişdir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra ulu öndər Heydər Əliyevin 1999-cu il 4 fevral tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi qeyd edilmişdir. Yubiley tədbirlərində iştirak edən və təntənəli yubiley iclasında nitq söyləyən ümummilli lider Heydər Əliyev demişdir: ***"Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu, çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün xüsusən Moskva müqaviləsinin və Qars müqaviləsinin burada böyük əhəmiyyəti vardır. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir".***

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həllivacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmiş, onu çiçəklənən diyara çevirmişdir.

Ulu öndər Heydər Əliyevin Naxçıvanın muxtariyyət statusunun qorunması, muxtar respublikanın yubileylərinin keçirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər bu gün də uğurla davam etdirilir. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2004-cü il 9 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 80 illik, 2009-cu il 6 fevral tarixli Sərəncamı ilə 85 illik yubileylərinin ölkəmizdə geniş qeyd olunması bunun bariz nümunəsidir. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 14 yanvar tarixli Sərəncamında qeyd olunur ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir.

Naxçıvanın muxtar respublika statusu onun 95 illik tarixi taleyində, ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malik olmuşdur. Bu illər ərzində Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfəsini vermişdir.

Naxçıvan Muxtar Respublikası 95 illik tarixi inkişaf yolunun ən dinamik və dayanıqlı inkişaf dövrünü yaşayır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə muxtar respublika 20 ildən artıq bir dövrdə hərtərəfli inkişafa nail olmuşdur. Həyatın bütün sahələrində əsaslı dəyişikliklər baş vermişdir. Bu işlər bu gün də sürətlə və ardıcıl olaraq davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası 95 illik tarixi inkişaf dövründə heç vaxt indiki qədər inkişafa, uğurlara, nailiyyətlərə imza atmamışdır. Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində ölkəmizin daha böyük inkişafına doğru inamla və qətiyyətlə irəliləyir, çiçəklənən bir diyara çevrilir.***

**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

# İnteraktiv dərs keçilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"na uyğun olaraq muxtar respublikada bu münasibətlə silsilə tədbirlər keçirilir. Həmin tədbirlərin davamı olaraq dünən muxtar respublikanın ümumtəhsil müəssisələri ilə Dövlət Bayrağı Muzeyi arasında "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" mövzusunda interaktiv dərs təşkil edilib.

İnteraktiv dərsdə AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli bildirib ki, Azərbaycanın və Şərqin ən qədim diyarlarından biri, çoxəsrlik dövlətçilik ənənələri ilə həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşadan, görkəmli elm xadimləri, sənətkarlar, tarixi şəxsiyyətlər yetişdirən, ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynayan Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi tamam olur.

Qeyd edilib ki, ötən əsrin 20-ci illərində gedən proseslər qədim diyarımızın muxtariyyət statusu qazanaraq Azərbaycanın tərkibində əbədi qalması ilə nəticələnib. Bu mənada, ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının yaradılmasını Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət adlandırması təsadüfi deyildir.

Fəxrəddin Səfərli bildirib ki, Naxçıvan həm də Azərbaycanın böyük dövlətçilik ənənələrinə malik olan qədim diyardır. X əsrdə burada Naxçıvan şahlığının, XII əsrdə isə Atabəylər dövlətinin yaranması da bunu təsdiq edir. Bundan əlavə, XVIII əsrdə Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı inzibati idarəçiliyin formalaşmasına əsaslı töhfələr verib. XX əsrin əvvəllərində həmin dövlətçilik ənənələrinin əsasında 1 milyondan çox əhaliyə malik olan Araz-Türk Respublikası yaradılıb. Bu mənada, 1924-cü ildə Naxçıvanın muxtariyyət qazanması həm də tarixboyu yaranan



Naxçıvan şəhər 8 nömrəli tam orta məktəb



Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbi

dövlətçilik ənənələrinin davam etdirilməsinə rəvac verib.

Qeyd olunub ki, bu gün Naxçıvan Muxtar Respublikası uğurla inkişaf edir, yeni-yeni nailiyyətlər qazanır. Yüksək iqtisadi potensiala malik olan muxtar respublikada dövlət proqramlarının, infrastruktur layihələrinin uğurla həyata keçirilməsi sayəsində Naxçıvan artıq bir sıra mühüm göstəricilər üzrə iqtisadi təhlükəsizliyini də təmin edib, mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilib. Ötən il İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı olan qədim diyarımız Azərbaycan Respublikası Prezidentinin sədri olduğu "Caspian European Club"un 2017 və 2018-ci illər üçün ölkənin iqtisadi regionları üzrə hazırladığı investisiya reytinqində ən yüksək ümumi bal toplayaraq birinci olub. Şübhəsiz, bütün bunlar muxtariyyətin bəhrələri olmaqla yanaşı, həm də muxtar respublika rəhbərinin həyata keçirdiyi məqsədyönlü siyasətin məntiqi nəticəsidir.

İnteraktiv dərs 200-dən çox ümumtəhsil məktəbinin şagirdləri tərəfindən izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## “Muxtar respublikanın dövlət orqanlarının internet resurslarının təhlükəsizliyinin təmin olunması” mövzusunda seminar keçirilib



*Fevralın 8-də “Muxtar respublikanın dövlət orqanlarının internet resurslarının təhlükəsizliyinin təmin olunması” mövzusunda seminar keçirilib.*

Muxtar respublikanın dövlət orqanlarının informasiya təhlükəsizliyinə cavabdeh şəxslərin və mətbuat xidmətlərinin əməkdaşlarının iştirak etdiyi seminarı Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov açaraq bildirib ki, bu gün dünyanı informasiyasız təsəvvür etmək mümkün deyil. İnformasiyanın cəmiyyət həyatındakı rolu nə qədər böyük olsa da, informasiya təhlükəsizliyinin qorunması da bir o qədər vacibdir. Ötən dövrdə Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mütəxəssisləri tərəfindən muxtar respublikanın dövlət orqanlarının saytları yaradılıb, bu qurumlar arasında elektron sənəd dövriyyəsi sistemi istifadəyə verilib.

Rövşən Məmmədov vurğulayıb ki, cəmiyyətin informasiyaya olan tələbinin artması informasiya təhlükəsizliyinin qorunmasını daha da aktuallaşdırıb. Çünki informasiya təhlükəsizliyinin təmin edilməsi sistemli və kompleks yanaşma tələb edir. İnternet resurslarının təhlükəsizliyinin təmin olunması ilə bağlı keçirilən bu seminarda da əsas məqsəd birgə mübarizə tədbirləri haqqında iştirakçıları maarifləndirməkdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Ülvi Hüseynli çıxış edərək deyib ki, informasiya təhlükəsizliyinin təmin edilməsi prinsiplərinə muxtar respublikamızda ardıcıl şəkildə əməl olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin hərtərəfli qayğısı ilə dövlət orqanları və kütləvi informasiya vasitələri üçün geniş imkanlar yaradılmışdır. Müasir inzibati binaların istifadəyə verilməsi, əməkdaşlar üçün hərtərəfli iş şəraitinin yaradılması, elektron hökumətin tətbiqi, sürətli internetə çıxış və yeni texnologiyalardan istifadə bu sahədə fəaliyyətin səmərəli təşkilinə xidmət edir. Yaşadığımız dövrün qarşıya qoyduğu tələblərdən biri də informasiyanın təhlükəsiz və operativ formada ictimaiyyətə çatdırılmasıdır. Bu işdə internetin imkanlarından geniş istifadə olunması isə dövrün tələbidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 18 may tarixli Sərəncamına əsasən muxtar respublikanın mərkəzi icra hakimiyyəti orqanlarında mətbuat və ictimaiyyətlə əlaqələr üzrə vəzifələrin təsis olunması dövlət orqanları ilə kütləvi informasiya vasitələri arasında informasiya siyasətinin həyata keçirilməsində yeni mərhələnin əsasını qoymuşdur. Ötən il dövlət orqanlarının internet saytlarında mətbuat xidməti bölməsi yaradılmış, informasiya-məlumatlandırma işinin keyfiyyəti yüksəldilmişdir. Lakin bəzi hallarda internet saytlarından istifadə zamanı qeyri-peşəkar yanaşma halları müşahidə olunur. İnformasiya təhlükəsizliyinə cavabdeh şəxslərin mütəxəssislərlə razılaşdırmadan internet saytlarında düzəliş və əlavələr etməsi internet informasiya ehtiyatlarının təhlükəsizliyi üçün təhdidlər yaradır. Keçirilən seminar da bu sahədə fəaliyyətin düzgün təşkilinə xidmət edir.

Tədbir internet resurslarının təhlükəsizliyinin təmin olunması ilə bağlı təqdimatlarla davam edib.

Naxçıvan Muxtar Respublikası İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin şöbə müdiri Şahin İsmayılov, Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşı Bayram Ələkbərov, Rabitə və Yeni Texnologiyalar Nazirliyinin əməkdaşı Cavid Mustafayev slaydlar vasitəsilə informasiya təhlükəsizliyinin qorunması sahəsində qarşıda duran vəzifələr barədə seminar iştirakçılarına ətraflı məlumat veriblər.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb, onlara maarifləndirici bukletlər paylanılıb.

**“Şərq qapısı”**

## Birinciliyə yekun vurulub



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları arasında keçirilən güc çoxnövçülüyü üzrə birinciliyə yekun vurulub.

Nazirliyin idman cəmiyyətinin zalında keçirilən yarışda 16 komandanın 108 idmançısı mübarizə aparıb. İdmançılar iki növdə – ağırlıq daşlarını qaldırma və qol güləşində qüvvələrini sınayıblar.

Yarışın bağlanış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Fazil Ələkbərov bildirib ki, bu gün Naxçıvanda idman və gənclər siyasəti ulu öndər ideyalarının ən sadiq təəssübkeşi, Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla həyata keçirilir. Muxtar respublikada idmanın kütləviliyinə nail olunması, xüsusilə uşaq və gəncləri idmana cəlb etmək üçün müasir idman infrastrukturu yaradılıb, maddi-texniki baza gücləndirilib və idmanın hərtərəfli inkişafı ilə bağlı kompleks tədbirlər həyata keçirilib. Muxtar respublikada görülən abadlıq-quruculuq işləri çərçivəsində hər il yeni idman obyektləri inşa olunur. İdman sahəsində həyata keçirilən uğurlu dövlət siyasətinin və yaradılan şəraitin məntiqi nəticəsidir ki, bu gün muxtar respublikamız mötəbər idman turnirlərinin, müxtəlif beynəlxalq və ölkə səviyyəli yarışların keçirildiyi məkana çevrilib.

Nazir diqqətə çatdırıb ki, yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların düzgün həyat tərzinə yönləndirilərək zərərli vərdişlərdən uzaq tutulması, həmçinin istedadlı gənclərin üzə çıxarılması sahəsində mühüm işlər görülür. Bu gün Naxçıvanda müxtəlif idman növləri üzrə fəaliyyət göstərən 12 idman federasiyasına hərtərəfli dövlət qayğısı göstərilərək fəaliyyətlərini yüksək səviyyədə qurmaları üçün tam şərait yaradılıb.

Qeyd olunub ki, keçirilən birinciliyin məqsədi polis əməkdaşları arasında fiziki gücü, dözümlülüyü inkişaf etdirmək və ölkə birinciliyində çıxış edəcək heyəti formalaşdırmaqdır.

General-leytenant Fazil Ələkbərov yarışda uğur qazanan polis əməkdaşlarını təbrik edib, onlara növbəti yarışlarda uğurlar arzulayıb.

Birinciliyin yekun nəticəsinə gəlincə, ağırlıq daşlarını qaldırmada Rəşad Həsənov (65 kiloqram), Kənan Əliyev (70 kiloqram), Mütəllim Əliyev (75 kiloqram), Sakit Məmmədov (80 kiloqram), Sərxan Zeynalov (85 kiloqram), Cavanşir Yaqubov (90 kiloqram) və Rauf Vəliyev (90+ kiloqram) qalib adını qazanıblar. Qol güləşində isə Rəşad Həsənov (65 kiloqram), Cavid Əhmədov (70 kiloqram), Rəcəb Məmmədov (75 kiloqram), Elvin Mütəllimov (80 kiloqram), İlkin Həsənov (85 kiloqram), Vəli Şirəliyev (90 kiloqram) və Allahverdi Qəribov (90+ kiloqram) hamıdan güclü olublar.

Komanda hesabında isə müvafiq olaraq ilk üç pillədə Daxili Qoşunlar, Naxçıvan Şəhər Polis İdarəsi və Daxili İşlər Nazirliyinin komandası qərarlaşıb.

Sonda qaliblər mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

## Dövlət qulluqçularının etik davranış qaydalarını rəhbər tutmaları günün tələbidir



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən dövlət orqanlarının 32 nümayəndəsinin iştirakı ilə “Dövlət qulluqçularının etik davranış qaydaları” mövzusunda seminar keçirilib.*

Seminarı komissiyanın sədri İsmayıl Qəribli giriş sözü ilə açaraq qeyd edib ki, dövlət orqanlarının və dövlət qulluğunun nüfuzunun artırılması, vətəndaşların dövlət orqanlarına və dövlət qulluqçularına etimadının yüksəldilməsi, dövlət orqanları və dövlət qulluqçularının fəaliyyətlərində səmərəliliyin və şəffaflığın artırılması və dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarına əməl olunmasının təmin edilməsi məqsədilə 2007-ci il 31 may tarixdə “Dövlət qulluqçularının etik davranış qaydaları haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya etik davranış qaydalarına əməl olunmasına nəzarəti əsasnaməsinə uyğun olaraq həyata keçirir. Bugünkü seminarın məqsədi qanunvericiliyin tələblərinin bu sahə üzrə məsul olan dövlət qulluqçularının diqqətinə çatdırılmasıdır.

Bildirilib ki, hər bir dövlət qulluqçusu qanunun aliliyini, insan hüquqlarını, demokratik prinsipləri və yüksək etik davranış qaydalarını rəhbər tutaraq bu qanunun müddəalarına əməl etməyə, şəxsin, cəmiyyətin və dövlətin maraqları naminə öz vəzifələrini səmərəli yerinə yetirməyə borcludur.

Sonra komissiyanın şöbə müdiri Mahir Abbasov “Dövlət qulluqçularının etik davranış qaydaları” mövzusunda çıxış edib.

Seminar iştirakçılarını maraqlandıran suallar ətraflı cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Muxtar respublikanın 95 illiyinə həsr olunmuş tədbir



*Dünən Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95 illiyinə həsr olunmuş tədbir keçirilib.*

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natavan Qədimova bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə muxtar respublikanın 95 illiyinə həsr olunmuş Tədbirlər Planı təsdiq edilib. Bununla bağlı silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Muxtariyyət tarixindən, qədim diyarımızın son 20 ildən artıq bir dövrdə keçdiyi inkişaf yolundan danışan nazir vurğulayıb ki, həmin dövrdə maddi-mədəni irsimizə, milli dəyərlərimizə də hərtərəfli dövlət qayğısı göstərilib. Belə ki, muxtar respublikamızda 1200-dən çox tarixi abidə pasportlaşdırılıb, 70-dən artıq dünya əhəmiyyətli abidə bərpa olunaraq xalqımıza qaytarılıb. Bu illər ərzində 15-dən çox muzey yaradılıb, yeni uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri, yüzlərlə digər mədəniyyət müəssisələri istifadəyə verilib. Bütün bunlar xalqımızın tarixinə, mədəniyyətinə, milli dəyərlərə, gənc nəslin sabahına göstərilən diqqət və qayğının bariz ifadəsidir.

Diqqətə çatdırılıb ki, bu gün qədim diyarımızda tarixi-mədəni irsin qorunub saxlanılması sahəsində görülən işlər öz bəhrəsini verir. Ötən il Naxçıvanda “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı” tədbirlərinin uğurla keçirilməsi, “Yallı” (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqslərini UNESCO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi hamımızda iftixar hissi doğurur.

Naxçıvanın hərtərəfli inkişafının müstəqillik dövrünün əsl dövlətçilik salnaməsi olduğunu bildirən Natavan Qədimova çıxışının sonunda muxtar respublikamızda incəsənətin inkişafında əldə olunan uğurlara görə Ali Məclis Sədrinə tədbir iştirakçıları adından minnətdarlıq edib.

Tədbirin bədii hissəsində Naxçıvan Dövlət Filarmoniyasının Simfonik Orkestrinin konserti olub. Konsertdə Azərbaycanı, o cümlədən Naxçıvanı tərənnüm edən mahnılar alqışlarla qarşılanıb. Orkestrin ifasında dünya bəstəkarlarının əsərləri də ifa edilib, xor kollektivinin çıxışı olub.

Konsert böyük bəstəkarımız Üzeyir Hacıbəyovun “Koroğlu” operasından “Cəngi”nin sədaları altında rəqs kollektivinin ifası ilə başa çatıb.

**Əli RZAYEV**

## Şahbuz rayonunda müşavirə olub

Bədən tərbiyəsi və idmanın inkişafına həsr edilmiş müşavirəni rayon İcra Hakimiyyətinin başçısı Rafael Babayev açıb. Bildirib ki, 2018-ci il 10 dekabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr”lə bağlı keçirilən müşavirədə verilən tapşırıqların icrası gənclərin fiziki inkişafına, sağlam böyüməlırinə hərtərəfli şərait yaradır.

Bu gün Şahbuz rayonunda voleybol, futbol, sərbəst güləş, yüngül atletika, şahmat, karate-do və paralimpiya üzrə federasiyaların bölmələri fəaliyyət göstərir. Ümumilikdə, 3391 nəfər idmanla məşğul olur. Həmçinin 14 sağlamlıq imkanları məhdud uşaq idmana cəlb edilib.

Vurğulanıb ki, son illər rayonda gənclərdən ibarət şəhər, qəsəbə, kənd voleybol və futbol komandaları arasında yarışlar keçirilərək bu idman növlərinin kütləviliyinə müəyyən qədər nail olunub. Gənclər futbola cəlb olunub, “Batabat” komandasının muxtar respublika çempionatında iştirakı təmin edilib.

2018-ci ildə rayon idmançıları bir sıra yarışlarda nailiyyətlər əldə edib, keçirilən müxtəlif idman yarışlarında uğurlu nəticələr qazanıblar.

Qeyd olunub ki, rayonda idmanın inkişafına göstərilən hərtərəfli qayğıya baxmayaraq, bu sahədə müəyyən nöqsanlar da var. Yeniyetmə və gənclərin bir qisminin idmanla məşğul olmaması onu göstərir ki, onların idmanın müxtəlif növlərinə marağının artırılması, idman qurğularından istifadə lazımi səviyyədə deyil. Rayonda idmanın kütləviliyinin təmin olunmasında Gənclər və İdman İdarəsinin, eləcə də Təhsil Şöbəsinin üzərinə mühüm vəzifələr düşür. Federasiyaların rayon bölmələri komandalar yaratmalı, rayon birinciliklərinin keçirilməsinin təşkil edilməsində yaxından iştirak etməlidirlər. Şahbuz Rayon Gənclər və İdman İdarəsi Əhalinin Sosial Müdafiəsi Mərkəzi ilə birlikdə məhdud fiziki imkanlı yeniyetmə və gənclərin müxtəlif idman növlərinə cəlbinə daha ciddi yanaşmalıdır. Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şahbuz rayon şöbəsi ilə birgə “Vətənin müdafiəsinə hazıram” poliatlon çoxnövçülüyü, “Sərhəd” və “Şahin” hərbi idman oyunlarının təşkilini diqqətdə saxlamalıdır.

İcra başçısı bildirib ki, 2019-cu ildə rayonda bədən tərbiyəsi və idmanın inkişafı ilə əlaqədar hər bir aidiyyəti qurum və federasiyaların bölmələri üzərlərinə düşən vəzifələrin məsuliyyətini dərk edərək bu sahənin inkişafına nail olunması üçün əllərindən gələni əsirgəməyəcəklər.

Müşavirədə Şahbuz rayonunda 2019-cu ildə gənclər və idman sahəsində görüləcək işlərlə bağlı rayon İcra Hakimiyyəti və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin birgə tədbirlər planı təsdiq edilib. Müzakirə olunan məsələ ilə əlaqədar rayon Gənclər və İdman İdarəsinin rəisi İdris Qəhrəmanovun və Təhsil Şöbəsinin müdiri Araz Məmmədovun çıxışları dinlənilib.

Tədbirdə 2018-ci ildə idman sahəsində fərqlənən məşqçi-müəllimlər və idmançılar mükafatlandırılıblar.

**Hicran ƏLİYEVA**

*Naxçıvan bölgəsində təqvim adətləri ilə bağlı keçirilən bayramlardan biri də Xıdır və yaxud Xıdır Nəbi bayramıdır. Bu bayram "qışın oğlan çağında", kiçik çillənin onuncu günü qeyd edilir. Kiçik çillə yanvar ayının 31-dən fevral ayının 19-na qədər olan dövrü əhatə etdiyindən Xıdır bayramı fevralın 9-da kiçik çillənin yarı olduğu gündə keçirilir. Naxçıvan Muxtar Respublikasının bəzi şəhər və kəndlərində bu bayramın fərqli günlərdə keçirildiyinə də şahid oluruq.*

*Xalq təqvimi*

# Xıdır Nəbi bayramı



Bu bayram bəzən həftənin dördüncü gününə təsadüf etdiyindən yanlış olaraq dinlə əlaqələndirilir. Maraqlı cəhət bundan ibarətdir ki, bayram nəyə görə məhz fevralda, qışın ən sərt vaxtında keçirilir? Çünki qışın ən çətin dövründə, insanların tədarük gördükləri ərzaq, yem, yanacaq ehtiyatının azaldığı vaxt Xızır Peyğəmbərin çağırılması onun yardımına böyük ehtiyacla bağlıdır. Əldə olan materiallara əsaslanaraq demək olar ki, bayram çətinlikdə insanların dadına, köməyinə çatan, istilik hamisi olan Xızırla bağlı olub, onun şərəfinə keçirilir. Bu, İslamdan öncə formalaşmış əski türk inancıdır. Bir qayda olaraq fevral ayının 9-u qeyd olunmalıdır.

Naxçıvan bölgəsində bayrama bir neçə gün qalmış onu qarşılamaq üçün hazırlıq işləri görülür, evlər səliqə-sahmana salınır, həyət-baca təmizlənir. İnama görə, səliqəsiz evə Xızır gəlməz, Xızır gəlmədiyi ev, ailə isə dərd-bəladan qurtulmaz.

Bayramda qovurmaq üçün buğda, küncüd təmizlənir, bir çox kəndlərdə (Kükü, Teyvaz, Qıvraq, Şahtaxtı) Günəşi çağırmaq anlamında, Günəşin, yazın rənginə uyğun olaraq yumurtalar qırmızı rəngə boyanılır. Qeyd edək ki, yumurta boyanması başqa kəndlərdə yoxdur. Ümumiyyətlə, bu adətə Novruz bayramında əməl edilir. Bəzi kəndlərdə isə Günəşin, istiliyin rəmzi olaraq çömçə bəzəyirlər. Bildirmək istərdik ki, Naxçıvan bölgəsində Günəşi çağırmaq anlamında Qodu mərasimi (Novruz bayramı ərəfəsində) keçirilir.

Qovurulmuş buğdadan (qovurğadan) qovut hazırlanır, yəni qovurğa kirkirədə (dəstərdə) çəkilir və yaxud həvəngdəstədə döyülür. Qovutu quru yemək çətin olduğundan ona bir az şərbət və ya doşab əlavə edib ovurlar.

Qovurğa ilə bərabər bayram günü badam, noxud, günəbaxan tumu qovrulur, hazırlanan qarışığa iydə, kişmiş, mövüc və başqa çərəzlər də qatılır. Plov (aş) süzülür, xəşil bişirilir, müxtəlif şirniyyat növləri hazırlanır və süfrəyə düzülür. Evdə olan adamların sayına görə plovun yanına şam qoyulur. Çox təəssüf ki, hazırda bu adətlərin bir qismi icra olunmur. Maraqlıdır ki, Xıdırda plov hazırlamaq, şam yandırmaq adəti Naxçıvan Muxtar Respublikasının hər tərəfində qeydə alınmamışdır.

Bayram hamıdan çox uşaqların sevincinə səbəb olur. Hava qaralan kimi onlar qapılara gedib, torba, papaq atır, Xıdırın payın yığırlar. Pay gözləyənlər aşağıdakı misraları söyləyirlər:

*Xıdıra xıdır deyərlər,*
*Xıdırın payın verərlər.*

və yaxud:

*Çatma, çatma çatmaya,*
*Çatma yerə batmaya.*
*Xıdırın payın kəsənin*
*Ayağı yerə çatmaya.*

Torbalara müxtəlif növ şirniyyat, çərəzlər qoyulub uşaqları yola salırlar. Onu da qeyd edək ki, Culfa bölgəsində (Ləkətağ, Saltaq kəndləri) mal-qaranın yemi, insanların özlərinin ərzaqları qurtardıqda Xıdır Nəbidə evin bacasından ip, ipə bağlanmış corab sallayar, malqara üçün yem, özləri üçün ərzaq istəyərdilər. Toyuğu, cücəsi olmayanlar, ipin ucuna lələk bağlayıb, toyuq-cücəsi çox olanların evinin bacasından içəri sallayardılar. Evin yiyəsi də həmin adamın nə istədiyini bilib, torbaya toyuq qoyub geri qaytarardı. Demək olar ki, Xıdır Nəbi bayramı çətinliklərdən qurtarmaq, darda qalanlara kömək, bərabərlik anlamında keçirilən əsl milli bayramdır.

Topladığımız etnoqrafik materiallardan aydın olur ki, qovut çəkməklə yanaşı, bəzi kəndlərdə bayram gecəsi xəşil də bişirib yük yığılmış taxtın altına qoyurlar. Çəkilmiş qovutdan da taxtın altına qoymaq adəti var. İnanca görə, Xızır Peyğəmbər gecə gəlib xəşilə barmağını, qovuta isə əlini basacaqdır. Xızırın atının ayaq izinin qovuta düşdüyünə inanılır. Səhər xəşilin, qovutun üzərində müəyyən iz olsa, bunu Xızırın əlinin, barmağının və ya atının ayaq izi hesab edirlər. İnama görə, belə qovut şəfaverici xüsusiyyətlərə malik olur. Deyirlər ki, bu il həmin evə uğur gələcək, bolluq, bərəkət olacaq, arzular həyata keçəcəkdir.

Digər bir inama görə, bayram günü xəşil bişirilib qalağın üstünə qoyulur. Əgər qəcələ (dolaşa) gəlib xəşildən bir dimdik götürüb uçub getsə, həmin evin qızı bu il özgə kəndə, əksinə, yerə salarsa, öz kəndinə ərə gedəcəkdir. Başqa bir inamda da deyilir ki, xəmirin içinə muncuq qoyulub kökə bişirilir, o muncuq kimin payının içindən çıxarsa, demək, həmin insan tezliklə istəyinə çatacaqdır. Sarıqamış çərkəzlərində də Hıdır-Elləzdə duzlu çörək yapılır. Bu çörəyin bir hissəsini subay qızlar yeyər, qalan hissəsini isə yastığının altına qoyub yatar. İnanca görə, qız ailə quracağı oğlanı yuxusunda görər. İkinci günü çörəyin qalan hissəsini qarğaların yeyə biləcəyi yerə qoyarlar. Sonra qarğanın çörəyi götürüb hara gedəcəyinə baxıb qızın da o tərəfə gedəcəyinə inanarlar.

Ordubadın Kələki kəndində isə Xıdır Nəbi günü Xızırın şərəfinə ehsan verilərdi.

Təsərrüfat, bolluq, bərəkətlə bağlı olan bu bayramda aşağıdakı inama əməl edilir. Ev yiyəsi yumurtlamayan toyuqları kisəyə yığıb deyir ki, aparıram kəsməyə. Bir yaşlı adam da onun qabağına çıxıb qoymur ki, kəsmə, bu il yumurtlayacaqlar. Toyuqlara Xıdır Nəbi qovurğası vermə adəti də vardır.

Toplanmış etnoqrafik materiallardan məlum olur ki, bir sıra kəndlərdə (Qıvraq, Kükü, Yuxarı Qışlaq) Xıdır bayramı günü xına yaxmaq adəti mövcuddur. Qızlar, gəlinlər bütün barmaqlarına, oğlanlar isə çeçələ barmaqlarına xına yaxarlar. Hazırlanmış xınadan bir qab pay götürüb (Xıdır payı) bayıra qoyurlar ki, Xızır gəlib əlinə yaxsın. Mənbələrə əsaslanaraq demək olar ki, xına çox qədim dövrlərdə Azərbaycan türklərində və digər türk xalqlarında şadlıq, sıxıntıdan, yasdan çıxmaq rəmzidir. Bölgəmizdə də həmin günü xınanın qoyulması sərt qışın, ağır günlərin artıq arxada qaldığı, qışdan xoş günlərin, istiliyin gəldiyi anlamını verir.

Xıdır Nəbi günü oğlan evindən nişanlı qızlara, ata evindən təzə gəlinlərə "Xıdır payı" aparmaq adəti geniş yayılmışdır. Qovurğa, küncüd, qovut, noxud, mərcimək və sair çərəzlərdən xonça tuturlar. Onu da qeyd edək ki, Cəhri, Payız, Gülşənabad kəndlərində bunun əksinə olaraq nişanlı oğlanlara qız evindən pay aparırdılar. Payda bəyə isti köynək, yun corab da qoyurdular. Bir məsələni vurğulamaq istərdim ki, günümüzdə də nişanlı qızlara "Xıdır payı" aparmaq adəti mövcuddur. Xıdır Nəbi bayramını hamı səbirsizliklə gözləyir və bayramı sevinclə qeyd edərdilər.

Xıdır Nəbi bayramında doğulan oğlan uşaqlarına Xıdır, Nəbi, İlyas və sair kimi adların qoyulması adəti də geniş yayılmışdır. Xıdır gecələrində axşamdan səhərə qədər külək əsərsə, deyərlər ki, bu Xıdır Nəbidir, atını çapa-çapa bərəkət paylayır. Əsən külək isə onun boz atının yelidir.

*Mən Xıdırın nəyiyəm,*
*Boz atının yeliyəm.*

Xızırın boz at minməsinə "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlirik. İnsanlar daim çıxılmaz vəziyyətdə qalanda boz atlı Xızırı arzulamış, o isə öz köməyini əsirgəməmiş, onlara yol göstərmişdir.

Xalq arasında olan inama görə, Xıdır Nəbi günü havaların xoş keçməsi ilin bol, bərəkətli olmasına işarədir.

Xıdır həm də istilik və odla bağlıdır. Yuxarıda qeyd etmişik ki, süfrəyə gətirilən aşın kənarlarına şam qoyurlar. Bu şamların qoyulması isə yaxud:

*Xıdıra Xıdır deyərlər,*
*Xıdıra çıraq qoyarlar,*

– deyimi də odla, istiliklə, istiliyi çağırmaqla əlaqəlidir. Bu, eyni zamanda qışın şaxtasının, soyuğunun odla, isti ilə gedəcəyinə, torpağın isinib oyanacağına işarədir. Od, istilik, xız yazın gəlməsinin əlamətləridir. Həm də bu dövr qışın ən soyuq günlərindən biridir. Xalq arasında "Xıdır girdi, qış girdi" kimi deyim də mövcuddur.

Sonda deyə bilərik ki, Xıdır Nəbi Orta Asiya mədəniyyəti (şamanizm), əski Anadolu mədəniyyəti (bolluq, bərəkətli ayinləri, ölümsüzlük), İslam mədəniyyəti (Xızır İlyas motivi), Azərbaycan mədəniyyəti (çətinlikdən qurtarmaq, Günəşi çağırmaq) və sairdən birləşərək yaranan bir şənlik törənidir.

**Asəf ORUCOV**
**tarix üzrə fəlsəfə doktoru, dosent**

## *"Mən Naxçıvan haqqında nə bilirəm?"*



Dünən Gənclər Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun təşkilatçılığı ilə Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş xarici ölkələrdən muxtar respublikada təhsil alan gənclər arasında "Mən Naxçıvan haqqında nə bilirəm?" mövzusunda bilik yarışması keçirilib.

Yarışın keçirilməsində məqsəd xarici ölkələrdən olan gənclərin muxtar respublika haqqında bilik və bacarıqlarının artırılması, muxtar respublikanın tarix və mədəniyyətinin ölkədən kənarda təbliği və onların asudə vaxtının səmərəli təşkilidir.

Bilik yarışması 50 sual olmaqla, 30 xarici tələbənin iştirakı ilə keçirilib. Suallar Naxçıvanın tarixi, coğrafiyası, görkəmli şəxsiyyətləri, tarixi-mədəniyyət abidələrinə həsr edilib.

Oyunun yekununa əsasən I yerə "Naxçıvan" Universitetinin tələbəsi Khaıruzzaman MD, II və III yerlərə Naxçıvan Dövlət Universitetinin tələbələri Atanda İderaduva, Reza Chachanlau layiq görülüblər.

Sonda qalib gənclər Gənclər Fondu tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar. Fərqlənən 3 gəncə isə həvəsləndirici diplomlar və hədiyyələr təqdim edilib.

**Xəbərlər şöbəsi**

## Muxtar respublika birinciliyinə yekun vurulub

Naxçıvanın ilk intellektual oyunu olan "Kim? Nə? Hara?" üzrə yeniyetmələrin I Naxçıvan Muxtar Respublika birinciliyinə yekun vurulub.

Oyunun yekun nəticəsinə əsasən Şahbuz rayon Kükü kənd tam orta məktəbinin şagirdi Günel Vəliyeva qalib adını qazanıb. Siyavuş Bağırov ikinci, Eltun Məmmədov üçüncü olub.

Qaliblərə diplom, fəxri fərman və hədiyyələri Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov və Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin sədri Sahil Tahirli təqdim ediblər.

***Naxçıvan Muxtar Respublikası***
***Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Şahmat birinciliyi başa çatıb



Naxçıvan Şahmat Mərkəzində keçirilən Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş şahmat birinciliyinə yekun vurulub.

Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Uşaq-gənclər şahmat məktəbinin birgə təşkil etdiyi yarış 3 gün davam edib. Naxçıvan şəhər tam orta məktəblərinin I-IV sinif şagirdləri arasında keçirilən birincilikdə 3 qız, 3 oğlan olmaqla, 102 şahmatçı iştirak edib. Yarış İsveçrə sistemi üzrə 7 turdan ibarət olub.

Keçirilən yarışın yekun nəticəsinə əsasən qızlar arasında 17 nömrəli tam orta məktəbin şagirdi Səma Hüseynəliyeva qalib adını qazanıb. 2 nömrəli tam orta məktəbin şagirdi Elnarə Quliyeva ikinci, 17 nömrəli tam orta məktəbin şagirdi Aynur Naibova isə üçüncü yerlə kifayətlənib.

Oğlanların mübarizəsində 10 nömrəli tam orta məktəbin şagirdi Murad İbrahimov hamıdan güclü olub. 13 nömrəli tam orta məktəbin şagirdi Rəhim Abbasov və 17 nömrəli tam orta məktəbin şagirdi Musa Allahverdiyev müvafiq olaraq iki və üçüncü yerlərə layiq görülüblər.

Sonda qaliblər diplom və hədiyyələrlə mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Stolüstü tennis turniri

*Gömrükçülər arasında idmanın stolüstü tennis növü üzrə turnir keçirilib. Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin yaradılmasının 27-ci ildönümünə həsr olunan yarışda komitənin sisteminə daxil olan gömrük orqanlarından 16 tennisçi qüvvəsini sınayıb.*



Gömrükçülərin fiziki sağlamlığını qorumaq, onlar arasında idmanın bu növünü təbliğ etmək, asudə vaxtın səmərəli təşkilinə nail olmaq və ən güclü tennisçiləri müəyyənləşdirmək məqsədilə təşkil olunan turnir olimpiya sistemi üzrə keçirilib. Püşkatmanın nəticələrinə uyğun olaraq baş tutan qarşılaşmalardan sonra hər iki yarımqrupdan 4 idmançı növbəti mərhələyə vəsiqəni təmin edib. İki gün davam edən turnir gərgin oyunlarla yadda qalıb.

Həlledici görüşdə Roman Məmmədovla (Sədərək Gömrük İdarəsi) qarşılaşan Bilal Nağıyev (Gömrük Mühafizə Xidməti) setləri öz xeyrinə başa vurmaqla çempionluğunu rəsmiləşdirib. Üçüncülük uğrunda mübarizənin qalibi isə Vəli Əliyev (komitə) olub.

Qaliblər Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin diplom və hədiyyələri ilə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 116